# QULİYEV NƏCƏF NAZİM İSLAM OĞLU

**(1922-2008)**

**Ədəbiyyatşünas**

10 mart 1922-ci ildə anadan olmuşdur. Füzuli rayonunun “Araz”qəzetində məsul katib işləmiş (1938-1941), İkinci dünya müharibəsində döyüşən orduda olmuş, cəbhədə iki dəfə ağır yaralanmış, ikinci qrup əlil kimi ordudan tərxis edilmişdir (1941-1944). Sonra Füzuli rayonunda hərbi səfərbərlik şöbəsinin müdiri (1944-1947), “Bakinskiy raboçiy” qəzetinin xüsusi müxbiri (1947-1974) olmuş, 1952-ci ildə BDU-nun Filologiya fakültəsini, 1963-cü ildə aspiranturanı bitirmiş və 1982-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. Dağlıq Qarabağda Dövlət Pedaqoji İnstitutunda tədris və elmi işlər üzrə prorektor (1974-1988), BDU-da professor, Azərbaycan mühacirət ədəbiyyatı və bədii tərcümə ETL-nin müdiri vəzifələrində çalışmışdır. 1985-ci ildən Yazıçılar İttifaqının üzvü olmuşdur. I və II dərəcəli Vətən müharibəsi ordeninə, 13 medala, 2 dəfə Fəxri fərmana və “Ali məktəb əlaçısı” nişanına layiq görülmüşdür.